Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# TEYMUR ELÇİN

**(Teymur Süleyman oğlu Əliyev)**

***Biblioqrafiya***

**Bakı - 2014**

Я19:Ш9(2=Аз)
016:82-93

**Tərtib edənlər:** **Mədinə Vəliyeva**
**Mətanət İbrahimova**
**Sevgiyə Əsədova**

**Ön sözün müəllifi:** **Elçin**
*Xalq yazıçısı*

**Redaktor və buraxılışa məsul:** **Kərim Tahirov**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Teymur Elçin** (Teymur Süleyman oğlu Əliyev): biblioqrafiya /tərt. ed. M.Vəliyeva, M.İbrahimova, S.Əsədova; ön sözün müəl. Elçin; red. və burax. məsul K.Tahirov; Azərbaycan Milli Kitabxanası.- Bakı, 2014.- 248 s.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırladığı "Teymur Elçin" adlı biblioqrafik göstəricidə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, şair və tərcüməçi, ictimai-dövlət xadimi Teymur Elçinin 1938-2014-cü ilə kimi dərc edilmiş əsərləri, həyat və yaradıcılığı haqqında materiallar əhatə olunmuşdur. Azərbaycan və rus dillərində tərtib edilmiş bu vəsait alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-460-35-3**

**© Azərbaycan Milli Kitabxanası, 2014**



# TƏRTİBÇİDƏN

Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, şair və tərcüməçi, ictimai-dövlət xadimi Teymur Elçinin anadan olmasının 90 illiyi tamam olur.

Azərbaycan Milli Kitabxanası tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib olunmuş "Teymur Elçin" (Teymur Süleyman oğlu Əliyev) adlı biblioqrafiya şairin həyat və yaradıcılığı haqqında olan ilk biblioqrafik vəsaitdir.

Teymur Elçin irsini geniş oxucu kütləsinə çatdırmaq məqsədilə tərtib edilmiş bu biblioqrafik göstərici 1938-ci ildən 2014-cü ilədək olan dövrü əhatə edir. Göstəricidə Teymur Elçinin əsərləri, tərcümələri, M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında saxlanılan, sözlərinə bəstələnmiş mahnıların not əlyazmaları, şeirlərinə yazılmış musiqi əsərləri, filmoqrafiyası, haqqında İnternet mənbələri öz əksini tapmışdır. Azərbaycan, rus və xarici dillərdə çap olunmuş materiallar xronologiya üzrə, daxildə isə əlifba sırası ilə qruplaşdırılmışdır.

Vəsaitdə Teymur Elçinin həyat və yaradıcılığının əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri də verilmişdir.

Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə, sonda köməkçi aparat tərtib edilmişdir.

Materialların toplanmasına köməklik göstərdiklərinə görə şairin ailə üzvlərinə minnətdarlığımızı bildiririk.

Gərgin əməyin və ciddi axtarışların nəticəsi kimi meydana gələn hər bir nəşr məhsulu kimi, bu kitab da yəqin ki, bir sıra xırda qüsurlardan xali deyildir. Ona görə də biblioqrafik göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, təklif və iradlarını Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəhəri, Xaqani küçəsi 57;
E-mail: contact@anl.az; URL: www.anl.az

**Elçin**
*Xalq yazıçısı*

# U C A L I Q

## *(Şair Teymur Elçin haqqında söz)*

M.Ə.Sabirin, A.Səhhətin, S.S.Axundovun, xüsusən Abdulla Şaiqin uşaqlar üçün yaratdıqları klassik əsərlərdən sonra, bir sıra şair və nasirlərimiz Azərbaycan uşaq ədəbiyyatının yaranmaqda olan ənənələri baxımından əhəmiyyətli nümunələrini yaratdılar, bu sahəni milli ədəbiyyatımızın məxsusi bir janrı kimi formalaşdırdılar və onu inkişaf etdirdilər. Ancaq Teymur Elçin bu sənətkarların arasında çox az saylı şairlərdən biri idi ki, onun yaradıcılığının əsasını, bədii-estetik məğzini məhz uşaq ədəbiyyatı təşkil edirdi, məhz uşaq ədəbiyyatının maraqları onun yaradıcılıq prinsipinə çevrilmişdi və istedadı ilə janra sevgisi onu Azərbaycan uşaq ədəbiyyatının klassiki səviyyəsinə qaldırdı.

Teymur Elçinin böyüklər üçün də yazılmış əsərləri az deyil və bu əsərlər içərisində mən "Osvensim", eləcə də Federiko Qarsia Lorkaya həsr olunmuş "Fəryad" poemalarını xüsusi qeyd etmək istəyirəm. Bu poemalar həm bədiilik baxımından, həm də mövzu aktuallığı (konyukturadan gələn aktuallıq yox, bəşəri dəyərlər mənasındakı aktuallıq!) etibarilə, ümumiyyətlə, Azərbaycan poema janrının ən yaxşı nümunələri sırasındadır, ancaq bütün bunlarla bərabər, Teymur Elçin ilk növbədə məhz uşaq ədəbiyyatının böyük nümayəndəsidir və 67 illik ömrünün son 20 ilini onunla gündəlik təmasda olduğum bir adam kimi deyə bilərəm ki, Teymur müəllim özü də bununla, yəni uşaqlar üçün yazmağı ilə fəxr edirdi.

Bu cəhəti ona görə vurğulayıram ki, bəzən "uşaq şairi" dedikdə (əslində, bu ifadə düzgün deyil, çünki şair – şairdir!), bunu





yüngül bir şey kimi qavrayırlar, elə bil ki, janrlar sıraya düzülüb və uşaq ədəbiyyatı da bu sırada arxa cərgədə dayananlardan biridir, "uşaq şairi" də həmçinin. Güman edirəm ki, belə bir qavranışın primitivliyi üzərində dayanmağa, dünya ədəbiyyatından misallar gətirməyə ehtiyac yoxdur və belə məlum bir həqiqət ki, hər şeyi istedad həll edir, istedad yoxdursa, ədəbiyyatda "zorən təbib"lik edirsənsə, istəyirsən uşaqlar üçün yaz, istəyirsən də böyüklər üçün – fərq etməz.

Teymur Elçin uşaq psixologiyasını dərindən duyan, hiss edən və bu duyğunu, hissiyyatı, elə bil ki, uşaq təfəkkürünün süzgəcindən keçirib, uşağın tam şəkildə anlayacağı sadə, səmimi və incə, xəfif yumoristik bir dillə ifadə edirdi.

Yalnız bir misal gətirmək istəyirəm.

Teymur müəllimin ilk nəvəsi Günaya həsr etdiyi silsilə şeirləri var və Günayın iki yaşı tamam olandan həmin silsilədən bu şeiri yazmışdı:

*Soruşdu nənəsi Günaydan:*
*- Bazardan nənə*
*Nə alsın sənə?*
*- Hər şey! Hər şey!*

*Soruşdu atası Günaydan:*
*- Mənsiz burda sən*
*Nə elə-mi-sən?*
*- Hər hey! Hər şey!*

*Soruşdu anası Günaydan:*
*- Nə deyim sənə*
*Günəşdən, Aydan?*
*- Hər şey! Hər şey!*

*Soruşdu babası Günaydan:*
*- A dəcəl qızım,*
*Sənə nə yazım?*
*- Hər şey! Hər şey!*

Teymur Elçinin Günaydan sonrakı nəvələrinə də həsr etdiyi bir çox şeirləri var və aydın məsələdir ki, bu şeirlər konkret uşaqlara həsr olunsa da, yalnız onlara məxsus deyil, onlar müəllifin yüzlərlə digər şeirləri və poemaları ilə birlikdə Azərbaycan uşaq poeziyasına məxsusdur və elə həmin sadəliyə, səmimiliyə görə, əgər belə demək olarsa (güman edirəm ki, indiki kontekstdə demək olar), həmin bədii-estetik uşaq təbəssümünə görə bu poeziyanın klassik nümunələridir.

Teymur Elçin bədii dilinin sadəliyində, səmimiliyində və sərrastlığında onun Azərbaycan folkloruna bağlılığının, şübhəsiz ki, müstəsna rolu var idi və folklor onun üçün bəlkə də ən böyük yaradıcılıq stimullarından biri, olsun ki, lap birincisi idi. O, nağıllarımızdan, dastanlarımızdan, bayatılarımızdan tutmuş atalar sözlərinə, laylalara, ağılara qədər xalq yaradıcılığını dərindən mənimsəmişdi və elə bilirəm ki, bu cəhət onun daxili aləmində mühüm yer tuturdu.

Teymur müəllim folklor janrlarını yazılı ədəbiyyata gətirdi və onun yazdığı tapmacalar, yaxud yanıltmaclar sadəliyi, təbiiliyi, səmimiliyi etibarilə folklor nümunələrindən heç vəchlə seçilmir, poetik gözəlliyini qoruyub saxlayır. Misal üçün, onun yazdığı tapmacaya fikir verin:

*Hərəsinin öz adı var,*
*Bir yerdədir*
*Tanıdığım beş pəhləvan,*
*Bu beş qoçaq, bu beş cavan*
*Bir yatırlar, bir dururlar,*
*Yumruğu da bir vururlar.*
(*Əl*)

yaxud:

*Bu quşa bax, qapqara*
*Səsi düşüb bağlara;*
*Bircə sözü varr, varr!*
*Hey danışır: Qarr, qarr!..*
(*Qarğa*)





Bu isə onun yazdığı yanıltmaclardandır:

*Keçilər köçürdülər,*
*Küçədən keçirdilər.*
*Küçük qaçdı küçəyə,*
*Keçilərin kiçiyi*
*"Keçi"- dedi küçüyə,*
*Hamı güldü keçiyə.*

Yaxud:

*Ağacdələn ağacı dəldi*
*Ağaca gələndən.*
*Dələnin də acığı gəldi*
*Ağacdələndən.*

Teymur Elçin o nadir qələm adamlarından biri idi ki, necə deyərlər, qanından-canından gələn bir ehtirasla Sözü sevirdi, Sözün qədrini bilirdi, Sözə hörmət edirdi və Sözü bu dərəcədə sevə-sevə Sözün yerini tapmaq üçün Sözlə əlləşirdi, hətta mübarizə aparırdı, axtarırdı və nəhayətdə istədiyini tapırdı.

Korney Çukovskinin uşaqlar üçün məşhur poemasının orijinalında belə misralar var:

*Муха-муха, **цокотуха**,*
*Позолоченое брюхо…*

Rus dilində "**цокать**" sözü var, yəni "səs salmaq", "cingildəmək", "danqıldamaq", "çaqqıldamaq", "şaqqıldamaq" və Korney Çukovski bu sözdən istifadə edərək, uşaqların dilindən milçəyə müraciətdə bir mehribanlıq yaratmaq üçün rus dilində olmayan bir söz – "***цокотуха*** " sözünü yaradıb.

Teymur Elçin bu poemanı gözəl bir dillə azərbaycancaya çevirib və o tərcümədə həmin misralar isə belə səslənir:

*Milçək-milçək, **vizilcək**,*
*Qarnı qızılı dibçək...*

Azərbaycan dilində "vızıldamaq" sözü var ("milçək vızıltısı", "ağcaqanad vızıldadı", "qulağımın dibində vızıldama" və s.) və Teymur Elçin bu sözdən istifadə edərək, yeni bir söz – "**vizilcək**" sözünü yaradıb. Baxın, işləndiyi mətndə nə qədər sadə və doğma səslənir, uşaqların dili ilə bu sözdə nə qədər təbiilik və səmimilik var.

Teymur müəllimin İ.Turgenevdən, F.Q.Lorkadan, "böyüklər üçün" yazan başqa şair və nasirlərdən səriştəli və oxunaqlı tərcümələri var, ancaq onun rus uşaq ədəbiyyatı klassikləri Samuil Marşakdan, Korney Çukovskidən, Aqniya Bartodan tərcümələri bizim tərcümə ədəbiyyatımızın ən gözəl nümunələrindəndir. Onun tərcümələrində "tərcümə ab-havası" tapmaq çətin məsələdir və hərgah tərcümə olduğu yazılmasa, güman edirəm ki, oxucu həmin şeirləri orijinal kimi qəbul edər. Onun ingilis xalq poeziyasından tərcümə etdiyi bu kiçik şeirə fikir verin:

*Əsin,*
*Əsin,*
*Küləklər,*
*Siz tələsin,*
*Küləklər.*
*Dəyirmanlar*
*Üyütsün,*
*Sabah undan*
*Bizimçün*
*Bişsin*
*Şəkərçörəklər.*
*Əsin,*
*Əsin,*
*Küləklər!*

Yəqin elə bu dərəcədə bir sadəliyə və səmimiliyə görə də Teymur Elçin bir tərcüməçi kimi folklora, xalq poeziyasına müraciət edirdi və onun ingilis, fransız, rus, yapon, yunan, çex,





gürcü, belarus, moldav folklorundan, Şimali Qafqaz, Dağıstan xalqlarının el ədəbiyyatından bir çox tərcümələri var.

O, təhsilini Azərbaycan dilində alsa da, rus dilini gözəl bilirdi, mükəmməl bir natiq kimi, yeri düşəndə təmiz rus dilində də aksentsiz çıxışlar edirdi, ancaq buna baxmayaraq, tərcümə üzərində işlədiyi zaman onun mizinin üstü müxtəlif lüğətlərlə dolu olurdu, çünki sözləri müqayisə edirdi, nüanslarını tutuşdururdu, onların daha uyğun alternativlərini tapırdı, misraların ritmini tuturdu.

Burasını da qeyd edim ki, o, daxilən musiqi ilə də çox bağlı idi, xüsusən xalq mahnılarını çox sevirdi və özü onları pianoda da, tarda da çalırdı, hərdən o, xalq mahnılarını zümzümə ilə oxuyurdu. Onun öz sözlərinə də bir çox populyar mahnılar bəstələnib və o, Tofiq Quliyev, Rauf Hacıyev, Əşrəf Abbasov, Zakir Bağırov, Süleyman Ələsgərov, Oqtay Zülfüqarov, Ramiz Mustafayev, Oqtay Rəcəbov və başqa bəstəkarlarla birlikdə xeyli mahnılar işləmişdi. Xüsusən onu Fikrət Əmirovla çox yaxın yaradıcılıq əməkdaşlığı birləşdirirdi və "Göy-Göl", "Toy mahnısı", "De görüm neyləmişəm", "Gülür ellər" və s. kimi məşhur mahnılar onların yaradıcılıq əməkdaşlığının bəhrələri idi.

Yeri düşmüşkən deyim ki, Teymur müəllim ilə Fikrət Əmirov həm yaxın dost, həm də yaxın qohum idilər (Fikrətin atası Məşədi Cəmil Teymur müəllimin dayısı idi) və oxucu onların arasındakı münasibətin istini hiss etsin deyə, istirahətə getmiş Fikrətin Teymur müəllimə cavab məktubundan bir neçə sətir nümunə gətirmək istəyirəm.

Fikrət Əmirov yazır:

*"Mənim istəkli Teymurum! İnan ki, sənin günəş kimi isti məktubun məni nə qədər sevindirdi.*

*Teymurcan! Bir daha təsdiq etdim ki, Teymur kimi mənim və yalnız mənim böyük bir dövlətim var!"*

Mənim də yaxşı yadımdadır ki, ara vurmaq qabiliyyətləri istedadlarından çox olan bəzi qüvvələr Fikrət Əmirovla Qara Qarayevin aralarını vurmağa nail olduğu vaxtlarda Teymur müəllim hansı bir ürək yanğısı və təsir etmək bacarığı ilə onları

bir-birinə yaxınlaşdırmağa çalışırdı və çox zaman buna nail də olurdu, ancaq bu artıq ayrıca bir yazının mövzusudur.

Onun Bülbüllə, Niyazi ilə, Rəşid Behbudov, Tofiq Quliyev, Mehdi Hüseyn, Mirzə İbrahimov, Rəsul Rza, İlyas Əfəndiyev (hələ qohum olmamışdan da əvvəl), Məmməd Cəfər Cəfərov, Məmməd Arif, Abbas Zamanov, Ənvər Əlibəyli, tarixçilər Cəmil Quliyev, Ağababa Rzayev, doktor Seymur Hacıyev, Sovet İttifaqı Qəhrəmanı Adil Quluyev ilə qarşılıqlı ehtirama söykənən dostluq münasibəti var idi və mən bu adları bir-bir saya-saya o dostluq münasibətlərini xatırlayaraq, fikirləşirəm ki, bu gün bizim cəmiyyətdə məhz elə bir ziyalı münasibətlərinin yeri çox görünür. O ziyalı münasibətlərində həmin münasibətlərin qiymətini və qədrini bilməkdən doğan bir məsuliyyət hissi dayanırdı.

Teymur müəllim tez-tez Nazim Hikməti xatırlayırdı, onunla görüşlərini, söhbətlərini yada salırdı və onun Nazim Hikmətə hörmətinin arxasında açıq-aşkar bir Türkiyə sevgisi var idi.

Mən:

- Teymur müəllim, bu xatirələri yazmaq lazımdır.- deyirdim.

O da:

- Mütləq yazacağam!- deyirdi, ancaq çox təəssüf ki, yazıpozudan kənar işlər onun vaxtının çoxunu alırdı və onun acısışirini ilə birlikdə zəngin həyat yolunda “mütləq yazacağam!”larla dolu xatirələr də çox təəssüf ki, onunla birlikdə getdi.

Qarabağ hadisələrinin ən şiddətli çağında unudulmaz Vasif Adıgözəlov Teymur müəllimlə birlikdə “Qarabağ şikəstəsi” oratoriyasını yazdılar və Dövlət mükafatı alan bu oratoriya yalnız musiqimizin və poeziyamızın yox, ümumiyyətlə, milli mədəniyyətimizin Qarabağ ətrafında baş verən hadisələrə, bu hadisələri törədənlərə və onların havadarlarına qarşı yüksək bədiiestetik səviyyəli bir protesti, bədii etirazı oldu.

Yeri düşmüşkən deyim ki, səksəninci illərin sonlarından etibarən Qarabağ hadisələri Teymur müəllimi dərindən sarsıtmışdı və mən o illərdə onun həmin mənəvi sarsıntılarının dəfələrlə şahidi olmuşdum. Ciddi, təmkinli, səbrli bir adam olmağına





baxmayaraq, o, bu sarsıntını gizlədə bilmirdi və onun daxilindəki bu sarsıntının mənəvi miqyası çox geniş, çox üzücü idi. Münaqişənin ən təhlükəli məqamlarında belə, tez-tez Şuşaya, Xankəndinə gedirdi və Bakıya qayıdandan sonra da onun üzünə baxmaq kifayət idi ki, ürəyində nələr çəkdiyini hiss edəsən.

Teymur müəllimdə yaşdan asılı olmayan bir müdriklik və ağsaqqallıq sanbalı var idi və bu insanın sonradan, yəni yaşlaşdıqca əldə etdiyi müdriklik və ağsaqqallıq sanbalı yox, elə bil ki, gendə olan, gendən gələn bir xüsusiyyət idi, baxmayaraq ki, onun atası Süleyman kişi sadə bir şuşalı zəhmətkeş idi.

İndi bu sətirləri yazarkən yadıma düşdü ki, 70-ci illərdə, mən Yazıçılar İttifaqının katibi işləyəndə bir dəfə böyük qiraət ustası, diktor Soltan Nəcəfov Füzulinin bir silsilə qəzəlini ayrıca vərəqlərə yazdırmaq üçün ittifaqa, çox təcrübəli və səriştəli makinaçı Sona Sadıqovanın (Sona xanım Xalq artisti Məhluqə Sadıqovanın bacısı idi) yanına gəlmişdi. İlyas Əfəndiyevin xətrini çox istəyən (vaxtilə radioda birlikdə işləmişdilər) Soltan müəllim mənimlə də görüşüb, hal-əhval tutdu, Teymur müəllimi soruşdu və dedi ki, ondan, yəni Teymur müəllimdən 30 yaş böyük idim, ancaq həmişə bizə sədr gəlmiş o cavan oğlana “müəllim” deyirdim, çünki məndə elə bir təəssürat var idi ki, yaşda özümdən də böyük bir ağsaqqalla danışıram.

Teymur müəllim gənc yaşlarından qaynar ictimai həyatın içində olmuşdu və elə ilk gənclik çağlarından etibarən də bir sıra vəzifələrdən sonra 25 yaşında Dövlət Radio Komitəsi sədrinin müavini, 28 yaşında MK-da şöbə müdirinin müavini vəzifələrində işləmiş, 1957-ci ildə isə, 32 yaşında Dövlət Radio və Televiziya Komitəsinin sədri təyin edilmiş, 1964-cü ilə qədər bu vəzifədə işləmişdi. Aradan bu qədər illər keçib, ancaq bugünün özündə də qocaman radio və televiziya işçiləri, hətta sonarkı nəsil nümayəndələri də onun sədrliyi haqqında böyük ehtiramla danışırlar.

O, işdə və ümumiyyətlə, həyatda çox ciddi adam idi və bəlkə mənim bu ciddiliklə bağlı indi deyəcəyim söz bir az quru

səslənir, ancaq həqiqət bundan ibarət idi ki, həmin ciddilik onun daxilindəki daimi məsuliyyət hissindən doğurdu.

Olan əhvalatdır: həmin 50-ci illərin sonu, 60-cı illərdə səmimi bir insan olan istedadlı telerejissor İsmət Səfərəlibəyov bir dəfə günorta çağı idarənin dəhlizində Teymur müəllimlə üzüzə gəlir və tələsik:

- Axşamınız xeyir, Teymur müəllim!.. - deyir.

Teymur müəllim eynəyinin qalın şüşəsi arxasından diqqətlə İsmətə baxaraq:

- İsmət, günorta vaxtı necə yəni "axşamınız xeyir?"- soruşur.

İsmət Səfərəlibəyov:

- Teymur müəllim, - deyir.- Sizi görəndə gözlərimə qaranlıq çökdü!..

Ancaq onun belə bir ciddiliyi, hətta zəhmi arxasında hər bir işçiyə qayğı, işə verilən qiymət dayanırdı və elə buna görə də komitənin işçiləri ondan qorxmurdular, ona ehtiram bəsləyirdilər və ona güvənirdilər.

İndi əlçatmaz, ünyetməz bir keçmişdə qalmış o gözəl 60-cı illərin birinci yarısında mən universitetin filoloji fakültəsinin tələbəsi idim, tez-tez Radio və Televiziya Komitəsinə gedib-gəlirdim: radio üçün oçerklər yazırdım, hekayələrimi verirdim və elə bil ki, sədrin sürücüsü Aslandan tutmuş şöbə müdirlərinə, baş redaktorlaracan işçilərin Teymur müəllimə bəslədikləri ehtiram da, Teymur müəllimin özünün nüfuzu da o binanın (komitənin indiki köhnə korpusu, o zaman isə yalnız elə o bina idi) divarlarına da hopmuşdu.

Bir məsələyə də toxunmaq istəyirəm: Teymur müəllim əqidəli insan idi və yalançı kommunist olub, bu yalançılıqdan bəhrələnərək ad-san və şəxsi rifah qazananlardan, fəxri adlar alıb ədəbiyyat generalı səviyyəsinə qaldırılanlardan deyildi. Ancaq bu, qətiyyən o demək də deyildi ki, Teymur müəllim cəmiyyətdəki nöqsanları, hətta hakim ideologiyanın yaratdığı ictimai eybəcərlikləri görmürdü, əksinə, görür və bunları məhz öz əqidəsindən doğan ideallara yaraşdırmırdı. İdeoloji doqmaların əsas götürüldüyü zamanlarda belə, o, həmişə proqressiv sənətin yanında olurdu, çünki özü təbiəti etibarilə proqressiv adam idi, tutduğu vəzifələrin yaratdığı imkanlardan istifadə edib, sənəti həmin doqmaların həmlələrindən müdafiə etməyə çalışırdı, istedadlı cavanların çap olunması, bəstələrinin səslənməsi, çəkdikləri əsərlərin nümayiş etdirilməsi üçün, onları ortodoks tənqidin hücumlarından qorumaq üçün əlindən gələni əsirgəmirdi.





Polad Bülbüloğlu yazır ki, "Teymur Elçin həm bir yaradıcı, həm də bir insan kimi çox böyük və nəcib xüsusiyyətlərə malik idi. Teymur Elçin həmişə çalışırdı ki, cavanlara, istedadı olanlara kömək etsin."

Və Polad da bizim – o vaxtkı cavanların! – bir çoxumuz kimi o qayğını öz üzərində hiss etmişdi. Teymur müəllimin, misal üçün, ilk olaraq Müslüm Maqomayevi eşidib qiymətləndirməsi və bu unikal ifaçının istedadının tam gücü ilə açılması üçün münbit zəmin yaratması onun, yəni Teymur müəllimin fəaliyyəti ilə bağlı bir çox faktlardan yalnız biridir.

Bizdən əvvəlki ədəbi nəslə mənsub Xəlil Rza da özünəməxsus olan bir şövq ilə Teymur müəllim ilə bağlı bu cəhəti vurğulayaraq yazırdı: "Azərbaycanın layiqli oğlu Teymur Elçin nəcib, mərd, ata ürəkli şair qardaşımızdır. Biz onun qayğısını həmişə hiss etmişik. O, görkəmli partiya və dövlət xadimi olmaqla bərabər, xəzinə bir insandır!"

Teymur müəllim nə qədər təmkinli bir insan idisə, onun daxilində bir o qədər də çılğın bir vətənpərvərlik ehtirası yaşayırdı. Bu dəfə də Məmməd Arazın sözləri yadıma düşür. Məmməd Araz yazırdı: "Teymur Elçin xalqımızın vətəndaş oğullarından biridir. O, ürəyi həmişə nəğmə ilə dolu, həmişə poetik, həmişə qayəli, həmişə nəğməli günləri olan şairimizdir."

Olduqca təmiz bir insan idi, ömrü boyu böyük vəziflərdə işləmiş, dəfələrlə (beş çağırış!) respublika Ali Sovetinə deputat seçilmiş, MK üzvü olmuş bu insanın olduqca da sadə bir həyat tərzi var idi və bilmirəm, etik baxımdan bunu yazmaq nə qədər münasibdir, ancaq belə bir faktı da qeyd etmək istəyirəm ki, o, 1992-ci ildə vəfat etdikdən sonra əmanət kassasında 70 manat pulu qalmışdı.

Teymur müəllimin şəxsiyyəti üçün səciyyəvi və yəqin bir az da gülməli olan kiçik bir hadisə yadıma düşür. Radio və Televiziya Komitəsindən sonra o, MK-da şöbə müdiri işləyirdi və tez-tez rayonlara ezamiyyətə gedirdi. Teymur müəllimin həyat yoldaşı Leyla xanım məşhur Cuvarlinskilər nəslindən idi (əslən Füzuli rayonunun Cuvarlı kəndindən) və çox kübar xasiyyətli, uzun illər indiki BDU-nun Azərbaycan və rus bölmələrində iqtisadiyyatdan dərs demiş Leyla xanım, eyni zamanda folklordan, qədim adət-ənənələrdən tutmuş mətbəximizə qədər milli xüsusiyyətlərə bağlı bir adam idi. Bir gün Teymur müəllim yenə rayona, səhv etmirəmsə, İsmayıllı tərəflərə gedir və Leyla xanım ondan xahiş edir ki, o tərəflərin yaxşı pencəri olur, qayıdanda bir az göy-göyərti gətirsin, Teymur müəllim isə Leyla xanımın sözünü heç vaxt yerə salmazdı.

Sovet dönəmində rayonlarda MK-nın böyük bir şöbəsinin müdirinin bir sözü iki ola bilməzdi və… Teymur müəllim rayonda işini görüb qurtarandan sonra Bakıya qayıdanda sürücüyə:

- Üzeyir, - deyir,- maşını Təzə bazara sür.

Üzeyir maşını Təzə bazara sürür, Teymur müəllim də maşından düşüb Təzə bazara girir və on-on beş dəstə göyərti alıb evə gətirir… Aydın məsələdir ki, Leyla xanım da bunu o saat başa düşür…

Güman edirəm ki, bu kiçik epizod az şey demir və ona nəsə əlavə etməyə ehtiyac yoxdur.

Sovet İttifaqı tamam şərəfsiz surətdə dağılandan və kommunizm “kabusu” iki əlini də yuxarı qaldırıb təslim olandan sonra Karl Marks adətən lağa qoyulur, adı istehza ilə çəkilir, onun əsərlərindən bir cümlə də oxumayan milyonlarla insan 70 illik naşı ideoloji təbliğatın əks effektinin nəticəsi olaraq, ona nifrət edir, ancaq mən indi onun adını yalnız ona görə xatırladım ki, gənc Marks universitet tələbəsi ikən gələcək xanımı Jenniyə bağışlamaq üçün dünya xalqlarının – alman (bütün alman ləhcələrində), ispan, yunan, latın, eston, alban və s. xalq mahnılarını, özünün yazdığı kimi “müxtəlif məcmuələrdən seçərək üzünü köçürüb” bir albom düzəltmişdi. O çox maraqlı albomdakı xalq





mahnılarını Teymur müəllim Azərbaycan dilinə çevirərək nəşr etdirmişdi və mən bu yazını yazarkən o kiçik kitabçanı (“Gənc Marksın albomundan”, Bakı: Azərnəşr, 1968) yenidən vərəqlədim.

Teymur müəllim o kitabçaya “Ön söz” də yazıb və o ön sözdə deyilir: “Albomdakı mahnılar insan gözəlliyini, saf məhəbbəti, onun böyük qüdrətini tərənnüm edir.”

Və mənə elə gəldi ki, müxtəlif xalqların mahnılarını səciyyələndirən bu sözlər elə rəhmətlik Teymur müəllimin özü üçün deyilib, çünki geniş mənada insan gözəlliyini qiymətləndirmək, saflıq, təkcə öz yaxınlarına, dostlarına deyil, ana dilinə, xalqa, vətənə sədaqət yalnız onun qələminin yox, ümumiyyətlə, xislətinin ifadəsi idi.

Onun 45 il bərabər ömür sürdükləri Leyla xanıma məhəbbəti bu 45 ildə zərrə qədər də azalmamışdı, adiləşməmişdi və Teymur müəllimə eyni məhəbbət də Leyla xanımın ürəyində idi. Leyla xanım Teymur müəllimdən sonra düz iyirmi bir il yaşadı və mən bunun şahidiyəm ki, bu iyirmi bir ildə bircə gün də olmadı ki, Leyla xanım ondan ayrı yaşasın, elə bil ki, onların ikisi də bir adamın – Leyla xanımın daxilində idi.

Yusif Səmədoğlu yazırdı: “Əziz Teymur müəllim ziyalılığı, insanpərvərliyi ilə məni ilk gündən özünə vurğun etmişdi.”

Yusifin bu səmimi sözləri eyni ilə Leyla xanıma da aid idi, o da eləcə saf, təmiz, ziyalı, eləcə vətənpərvər bir insan idi.

İndi Teymur müəllim də, Leyla xanım da haqq dünyasındadırlar və mən fikirləşirəm ki, o dünyada hansı formada olur-olsun, həqiqətən həyat deyilən bir şey varsa, onlar milyonların, milyardların arasından da yəqin bir-birlərini tapıblar və bir yerdədirlər.

*16 mart 2014*
*Bakı*

## Teymur Elçinin həyat
## və yaradıcılığının əsas tarixləri

**1924** - Teymur Süleyman oğlu Əliyev mart ayının 28-də Şuşa şəhərində anadan olmuşdur.

**1931** - Ailəliklə Bakıya köçmüş, burada 132 saylı orta məktəbdə orta təhsil almağa başlamışdır.

**1938** - "İspaniya qəhrəmanlarına" adlı ilk şeiri Bakı Mərkəzi Pionerlər Evinin Azərbaycanda Aprel revolyusiyasının 18-ci illiyinə və 1 May bayramına həsr olunmuş "Şeirlər məcmuəsi"ndə dərc edilmişdir;
- Orta məktəbin 8-ci sinfində oxuyarkən "Azərbaycan" şeirini qələmə almışdır.

**1939** - "Azərbaycan" şeiri Bakı Mərkəzi Pionerlər Evinin nəşr etdiyi "Şeirlər məcmuəsi"ndə dərc olunmuşdur.

**1941** - Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur;
- "Gənc işçi" qəzeti redaksiyasında ədəbi işçi işləmişdir.

**1941-1942** - Azərbaycan Radio Komitəsində ictimai - siyasi verilişlər baş redaksiyasında ştatdankənar müxbir kimi çalışmışdır.

**1942-1943** - Azərbaycan Radio Komitəsində ictimai - siyasi verilişlər baş redaksiyasında diktor,





redaktor, məsul redaktor vəzifələrində işləmişdir. Radionun "Uşaq və gənclər" radio verilişləri şöbəsinin müdiri olmuşdur.

**1943-1945** - Böyük Vətən müharibəsində Zaqafqaziya cəbhəsində kursant, kiçik komandir, alay komsomol təşkilatçısı, Zaqafqaziya cəbhə siyasi heyətinin hazırlıq və yenidən hazırlıq kurslarının müdavimi olmuşdur.

**1945** - "Almaniya üzərində qələbəyə görə" ordeni ilə təltif edilmişdir.

**1945-1946** - Ordu sıralarından tərxis ediləndən sonra APİ-nin komsomol komitəsinin katibi işləmişdir.

**1946-1948** - Azərbaycan LKGİ Bakı şəhər komitəsinin birinci katibi olmuşdur.

**1948** - Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir.

**1948-1949** - Azərbaycan LKGİ MK Təbliğat və təşviqat şöbəsi müdirinin müavini olmuşdur.

**1949-1950** - Azərbaycan LKGİ Bakı komitəsinin katibi olmuşdur.

**1950-1952** - Azərnəşrin siyasi-ictimai ədəbiyyat şöbəsinin müdiri işləmişdir.

**1952-1953** - Azərbaycan Nazirlər Soveti yanında Radio Məlumat Komitəsi sədrinin müavini işləmişdir.

| | |
|---|---|
| **1953-1955** | - Azərbaycan Nazirlər Soveti nəşriyyat qrupunun rəisi, katibliyin müdiri olmuşdur. |
| **1955-1957** | - Azərbaycan KP MK-nın Elm və mədəniyyət şöbəsinin təbliğat və təşviqat bölməsinin müdir müavini işləmişdir. |
| **1956** | - Azərbaycan KP XXI qurultayında Azərbaycan KP Təftiş Komissiyasının üzvü olmuşdur. |
| **1957** | - Sovet İttifaqı rəsmi nümayəndə heyətinin tərkibində Albaniyada olmuşdur;<br>- Moskva şəhərində gənclərin və tələbələrin Ümumittifaq və VI Ümumdünya festivallarında Azərbaycan SSR nümayəndələrinin müvəffəqiyyətli iştirakı ilə əlaqədar olaraq Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir. |
| **1957-1964** | - Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin sədri olmuşdur. |
| **1958** | - Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir;<br>- Azərbaycan Jurnalistlər Birliyinin üzvü seçilmişdir;<br>- Azərbaycan KP XXII qurultayında Azərbaycan KP Təftiş Komissiyasının üzvü olmuşdur. Azərbaycan KP MK üzvlüyünə namizəd seçilmişdir. |





| | |
|---|---|
| **1959** | - Xidmətlərinə görə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur;<br>- Sovet Sülhü Müdafiə Komitəsinin Fəxri Fərmanı ilə təltif edilmişdir. |
| **1959-1962** | - V çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmişdir. |
| **1960** | - Azərbaycan KP MK-nın XXIV Qurultayında Azərbaycan KP MK üzvü seçilmişdir. |
| **1961** | - Azərbaycan KP MK-nın XXV Qurultayında Azərbaycan KP MK üzvü seçilmişdir. |
| **1962** | - Sovet İttifaqı rəsmi nümayəndə heyətinin tərkibində Bolqarıstanda olmuşdur. |
| **1963-1966** | - VI çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmişdir. |
| **1964** | - Azərbaycan KP MK-nın XXVI Qurultayında Azərbaycan KP MK üzvü seçilmişdir;<br>- Sovet Sülhü Müdafiə Komitəsinin Fəxri Fərmanı ilə təltif edilmişdir. |
| **1964-1975** | - Azərbaycan KP MK Təbliğat və təşviqat şöbəsinin müdiri olmuşdur. |
| **1965** | -"1941-1945-ci illərdə Böyük Vətən müharibəsində qələbənin 20 illiyi" medalı ilə təltif edilmişdir. |

**1966** - "Əmək rəşadətinə görə" medalı ilə təltif edilmişdir;
- Sovet İttifaqı rəsmi nümayəndə heyətinin tərkibində Macarıstanda olmuşdur;
- Azərbaycan KP MK-nın XXVII Qurultayında Azərbaycan KP MK üzvü seçilmişdir.

**1967-1972** - VII çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmişdir.

**1968** - "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir;
- "Göyərçin" jurnalının 10 illiyi ilə əlaqədar gənclərin kommunist tərbiyəsi işində fəal iştirakına görə Fəxri Fərmanla təltif edilmişdir.

**1968-1969** - ÜİLKGİ MK-nın Fəxri fərmanları ilə təltif edilmişdir.

**1969** - Sovet Sülhü Müdafiə Komitəsinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

**1970** - V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

**1971** - Xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı Ordeni" ilə təltif olunmuşdur;
- Azərbaycan KP MK-nın XXVIII Qurultayında Azərbaycan KP MK üzvü seçilmişdir.





**1972-1975** - VIII çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmişdir.

**1973** - Sovet İttifaqı rəsmi nümayəndə heyətinin tərkibində Polşada olmuşdur.

**1974** - Anadan olmasının 50 illiyi və respublikanın sovet və partiya orqanlarında səmərəli fəaliyyətinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir;
- Sovet Sülhü Müdafiə Komitəsinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

**1975** - "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 30 illiyi" medalı ilə təltif olunmuşdur.

**1975-1988** - Azərbaycan Mədəniyyət nazirinin müavini vəzifəsində çalışmışdır.

**1978** - Azərbaycan SSR-də tarixi abidələrə respublika baxışında fəal iştirak etdiyinə görə Azərbaycan Tarix və Mədəniyyət Abidələrini Könüllü Mühafizə Cəmiyyətinin Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

**1981** - Sovet İttifaqı rəsmi nümayəndə heyətinin tərkibində İspaniyada olmuşdur.

**1983** - "Qar qız" mənzum pyesi M.Qorki adına Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur.

| | |
|---|---|
| **1984** | - Anadan olmasının 60 illiyi münasibətilə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir. |
| **1987** | - Türkiyə Cümhuriyyətində rəsmi səfərdə olmuşdur. |
| **1988-1990** | - Azərbaycan KP MK Ümumi şöbəsinin müdiri olmuşdur. |
| **1989** | - Vasif Adıgözəlovla "Qarabağ şikəstəsi" oratoriyasını yazmışdır. |
| **1991** | - Vasif Adıgözəlovla birgə "Qarabağ şikəstəsi" oratoriyasının musiqisi və sözlərinə görə ədəbiyyat, incəsənət və arxitektura sahəsində 1990-cı il Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı adına layiq görülmüşdür;<br>- Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinə üzv seçilmişdir. |
| **1992** | - Mart ayının 14-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. |
| **1994** | - Azərbaycan Respublikası Nazirlər Kabineti anadan olmasının 70 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında qərar vermişdir. |





## Görkəmli şəxsiyyətlər Teymur Elçin haqqında

Mənim istəkli Teymurum! İnan ki, Sənin günəş kimi isti məktubun məni nə qədər sevindirdi.

Teymurcan! Bir daha təsdiq etdim ki, T e y m u r kimi mənim və yalnız mənim böyük dövlətim var!

**Fikrət Əmirov,**
*SSRİ Xalq artisti*

Azərbaycan mədəniyyəti tarixində ziyalılıq nümunəsi olan Teymur Elçinin yeri həmişə görünür. Bəzən düşünürəm ki, bax, bu məqamda Teymur Elçinin yerinə başqa bir məmur işləmiş olsaydı, mədəniyyətimiz görün, nələr itirə bilərdi. Bu yer üzündə şərti olaraq iki Teymur – zabitəli, ciddi, tələbkar partiya adamı Teymur Əliyev və ipək kimi yumşaq, həlim, mehriban, kövrək, göy üzü kimi çağlar, dumduru gözləri ilə insanları sevən – şair Teymur Elçin yaşayırdı.

* * *

Teymur Elçin hələ indiyə qədər qiymətini almayan bənzərsiz bir tərcüməçidir.

...Azərbaycan dilinin bütün rəngləri, çalarları, gözəllikləri tərcümələrində bütün parlaqlığı ilə üzə çıxmışdır. Budur əsl sənətkarlıq!

**Elçin,**
*Xalq yazıçısı*

Teymur müəllim çox işıqlı bir insan idi, ziyalı bir insan idi və hamımızın xatirələrində də, o cür ziyalı kimi, o cür işıqlı insan kimi, xalqına bağlı olan, onun mədəniyyətini, onun ədəbiyyatını, onun dilini yaşatmaq istəyən, onların qayğısına qalan insan kimi yadda qalıb.

* * *

Teymur Elçin Azərbaycan poeziyasında yüksək əxlaqi mənəvi-dəyərlər əxz edən nümünələr yaratmaqla özünə qarşı böyük məhəbbətə, sevgiyə nail olmuşdur. Müxtəlif yaş dövrünə malik olan poeziyasevərlərin maraq dünyasını nəzərə alan Teymur Elçin azyaşlı təbəqəyə malik uşaqların da tələbatını yaddan çıxarmayaraq, onların dünyasına uyğun olan fikir və ideyalarını ustalıqla nəzmə çəkmişdir. Teymur Elçinin adı Azərbaycan ədəbiyyatı tarixində uşaq ədəbiyyatının görkəmli nümayəndəsi kimi qalmışdır.

**Anar,**
*Xalq yazıçısı*

Teymur Elçin Azərbaycan klassik poeziyasını yaxşı bilən, müasir rus və dünya ədəbiyyatının nailiyyətlərini öyrənən və istedadla yazılmış uşaq əsərlərində bunlardan yaradıcılıq yolu ilə faydalanan şairlərimizdən biridir. Onun əsərlərinin ən mühüm məziyyəti bununla izah olunur ki, şair öz sözünü uşaq aləminə, psixologiyasına məxsus incə bir kamertonla kökləməyi bacarır. Balacaların mənəviyyatına dərindən nüfuz edə bildiyi üçün T.Elçin onların bakir fikir və duyğular, arzu və həvəslər, maraq və duyğular dünyasında öz şeir və poemaları ilə doğmadır, arzuedilə ndir. Onun əsərlərində iki qat olduğunu görənlər haqlıdırlar. İlk təəssüratla bağlı olan birinci qat şən yumordur. Uşaq ürəkaçan yumorla yoğrulmuş misraları oxuduqca, yaxud dinlədikcə ürəkdən gülür. Lakin əsas qayə ikinci plandan baş qaldırır və fəhmli oxucunu düşündürür.

**Bəkir Nəbiyev,**
*akademik*

Vətəndaş – ziyalı, milli-ədəbi və ictimai xadim nümunəsi kimi şəxsiyyətinə, daxili-mənəvi mədəniyyətinə həmişə xüsusi ehtiram bəslədiyim ziyalılardan biri də Teymur müəllimdir.

**Yaşar Qarayev,**
*AMEA-nın müxbir üzvü*





Teymur Elçin qəlbi, düşüncəsi, zəkası, əqidəsi, əməli, bütün fəaliyyəti ilə Vətəninə, Millətinə sadiq olan bir unudulmaz məslək dostumdur.

**Cəmil Quliyev,**
*akademik*

Teymur Elçinin şeirlərinin uşaqları nə qədər şənləndirdiyinin və sonra da necə düşündürdüyünün, mübahisələr doğurduğunun dəfələrlə şahidi olmuşam. "Qarğanın məktəbində" şeirində qarğa quşları yığıb onlara dil öyrədir. "Qarr-qarr elə!" Lakin sərçə "qarr" əvəzinə "cik-cik" deyir, bildirçin "bıp-bıpıt" deyir. Hər quş öz dilində oxuyur.

Bircə tutuquşu qarğanı yamsılayır. Teymur Elçinin belə şeirləri dərin mənası ilə birgə, həm də uşaqları dilimizin zəngin, gözəl səslər aləminə aparır və onları bu dilə heyran qoyur.

**Sabir Rüstəmxanlı,**
*Xalq şairi, millət vəkili*

Teymur müəllim sərrast müşahidəyə malikdir, uşaqların əhval-ruhiyyəsini yaxşı bilir. Onun əsərlərində müasirliklə milli kolorit üzvi surətdə birləşir. Onun kiçik qəhrəmanı yeni dövrün, yeni mədəniyyətin meyvəsi olmaqla bərabər, bütün təbiəti ilə, bütün xarakterik cizgiləri ilə azərbaycanlıdır!

**İlyas Əfəndiyev,**
*Xalq yazıçısı*

Teymur Elçin sevib-sevilmək, oyanmaq hisslərini cəmiyyətin ən məsum xilqətinə - körpə balalara, uşaqlara aşılamaq yolunu tutub. Onun istedadı, bədii təfəkkürü uşaq əsərlərində zildir. Təsadüfi deyil ki, qeyri-uşaq şeirlərində də uşaq anlayışlı obrazlar, təşbehlər çox səmimidir.

* * *

T.Elçinin uşaq şeirlərinin arxitektonikası nəzəri ümumiləşdirmə üçün maraqlı material verir. Dilçilikdə belə bir fikir möv-

cuddur ki, insan dilinin törəməsi ilə uşağın dil açma prosesinin müəyyən uyğunluqları var. Teymur Elçin şeirinin quruluşu ilə ilk bəşər şeirinin, məsələn, qədim türk-Azərbaycan şeirinin tərkib hissələri arasında analogiya hiss olunur.

**Tofiq Hacıyev,**
*AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi*

Əzizim Teymur müəllim! Hissi qane etmək, inandırmaq ayrı şeydir – sənətkarlıqdır. Siz inandırırsınız! Bu bədii inandırıcılığın sirri isə hər şeydən əvvəl Sizin hissi idrakınızdakı səmimiyyət, yanğı, düşmənə, vəhşiliyə güclü nifrət, dosta-insanlığa böyük məhəbbətdir.

**Məmməd Cəfər,**
*akademik*

O, şair qəlbli böyük bir dövlət adamı idi.

* * *

Teymur Elçin həm bir yaradıcı, həm də adi bir insan kimi çox böyük və nəcib xüsusiyyətlərə malik idi. Teymur Elçin həmişə çalışırdı ki, cavanlara, istedadı olanlara kömək etsin. Başa düşürdü ki, onlar Azərbaycanın gələcəyidir.

**Polad Bülbüloğlu,**
*Xalq artisti*

Uşaq dünyaya gələn gündən böyüyür və dünyanı anlayır. Laylalardan anlayır, sevməcələrdən, tapmacalardan, bilməcələrdən... anlayır. Uşaq dünyada nə görürsə, qəlbinə köçürür, yaddaşına yazır. Biz, böyüklər isə... uşaq aləminin heç yüzdə birini də duya bilmirik, yaza bilmirik. Teymur Elçin uşaq dünyasını addım-addım böyüdüyünü diqqətlə, məhəbbətlə müşahidə edir, misralarında əbədiləşdirir.

**Hidayət,**
*şair-dramaturq, Əməkdar incəsənət xadimi*





Şair Teymur Elçindən söz düşəndə həmişə onu uşaq ədəbiyyatımızın tanınmış nümayəndəsi kimi təqdim edirlər. Ədəbiyyatşünaslıqda belə bir bölgü məqbul sayılsa da, bu həqiqi sənət nümunələrini müəyyən bir qəlibə salmaq baxımından mənə mübahisəli görünür. Çünki uşaq dünyasının qayğıları bütövlükdə böyüklərin, ümumiyyətlə, cəmiyyətimizin problemləri deyilmi? Hətta dünyanın ən vacib problemi – Sülh, dinc yanaşı yaşamaq, əmin-amanlıq məsələlərindən danışanda belə ilk növbədə gözümüzün qabağına uşaqlar gəlir. “Uşaqlar sabahımızdır” deyən böyüklər onların həm də bizim bu günümüz olduğunu yaxşı bilirlər. Bax, bu ölçülərlə istəkli şairimizin yaradıcılığına yanaşanda hər şeydən öncə onun narahat təbiətli, əsrin qayğıları ilə nəfəs alan həqiqi şair olduğunu görürük.

* * *

Əgər uşaqlar üçün yazılan bir şeirdə qarşıya qoyulan məqsəd, təlqin edilən estetik amil böyükləri də düşündürmürsə, maraqlandırmırsa, bu şeirin bədii dəyərindən danışmaq artıqdır və həm də bu o deməkdir ki, böyüklər üçün yaza bilməyən şairin uşaqlar üçün yazdığı şeirlərin poetik məziyyətləri də, bir az yumşaq desək, mübahisəlidir.

Azərbaycan poeziyasının təcrübəsi, klassiklərimizin yaradıcılığı da bunu sübut edir. Bir anlıq Sabiri, Abbas Səhhəti, Abdulla Şaiqi xatırlayaq.

Ümumi bir fikir demək niyyətində olsaq, Teymur Elçin yaradıcılığını bu həqiqi sənət ənənəsinin uğurlu davamı hesab etmək olar.

**Abbas Abdulla,**
*Əməkdar mədəniyyət işçisi*

Teymur Süleymanoviçin yaradıcılıq diapozonu çox genişdir. Tanrı ona sənətin ənginliklərinə ucalmaq üçün böyük istedad verib. Mən onu Korney Çukovski, Sergey Mixalkov, Aqniya Barto kimi qüdrətli rus şairlərilə bir cərgədə görürəm. Vaxt

qıtlığı ona aman vermir. Ancaq o, qəhrəmancasına yazıb yaradır, balalara sevinc bəxş edir.

**Boris Dubrov,**
*rus şairi*

Mən Teymur Elçinin əsərlərini oxuyanda Günər mənə sehrli nar ağacından bir nar verdi, dedi yesən, ömrün yüz il uzanacaq. Mən o sehrli narı bu kitabları yazan əziz, hörmətli şair Teymur Elçinə bağışlayıram. Qoy o, uzun illər yaşayıb- yaratsın və uşaqlarımız üçün gözəl nağıllar, şeirlər, nəğmələr yazsın.

* * *

Teymur Elçinin "Şəkərim, duzum" kitabına toplanmış şeirlər, poemalar, nağıllar, tapmacalar, nəğmələr balaca oxucularına sözlərin məna çalarlarını öyrətmək, müxtəlif tərbiyəvi fikirlər aşılamaq, ibrətamiz həyat hadisələrini dərk etdirmək məqsədilə yazılmışdır desək səhv etmərik. O, gözəl insan, talantlı yazıçı, qanadlı nəğmələr müəllifidir.

**Mirvarid Dilbazi,**
*Xalq şairi*

Teymur müəllim! Siz dəst-xətti olan təkrarolunmaz şairsiniz. Biz Sizinlə fəxr edirik. 60-cı illərin aşırımını keçdiyiniz bu bahar günlərində Sizə bahar ətirli həyat, poeziyamızın daha uzaq zirvələrinə uçmaq üçün möhkəm cansağlığı, xoşbəxtlik, şeirlərinizin Təbrizdə çapını görməyinizi arzu edirik.

**Mədinə Gülgün,**
*şair, Əməkdar incəsənət xadimi*

Əziz qardaşım Teymur! Siz gözəl şair, qayğıkeş və humanist dostsunuz. Siz xalqımızın çox istedadlı, özünəməxsus şair oğlusunuz.

**Balaş Azəroğlu,**
*Xalq şairi*





Teymur əsl ziyalı idi, azərbaycanlı ziyalısı. Hansı vəzifədə çalışırsa-çalışsın, onun sinəsində qeyrətli Azərbaycan türkünün ürəyi döyünürdü.

* * *

Teymur bizim ədəbiyyatımızın yaxın dostu idi. Teymur sözə zərgər kimi yanaşırdı. Və buna görə də, onun şeirləri uşaqlar tərəfindən çox sevilirdi, əzbər deyilirdi. Teymur eyni zamanda yaxşı mahnıların müəllifi idi. Onun qoyub getdiyi əsərlər bu gün də, Azərbaycan ədəbiyyatının, Azərbaycan poeziyasının gözəl nümunələri kimi yaşayır və yaşayacaqdır, bundan sonra da çox dərsliklərə düşəcəkdir.

Teymur Elçin poeziya zərgəri, dostluqda etibarı uca tutan bir şəxsiyyətdir.

**Hüseyn Abbaszadə,**
*Xalq yazıçısı*

Teymur Elçinin şeir və poemalarının əksəriyyəti kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulub. Bu isə, şairdən istedadla yanaşı uşaq aləmini bilmək bacarığı tələb edir. Uşaq dünyasının bir-birinə bənzəməyən müxtəlif rəngləri, rəng çalarları vardır ki, bunu görüb duymaq və kağıza köçürmək şairdən xüsusi məharət tələb edir.

Teymur Elçin həyatda, cəmiyyətdə və təbiətdə baş verən hadisələr barədə öz balaca oxucusunda aydın təsəvvür yaradır, elə bu yaşından başlayaraq onların şüurunda sonralar – yaşlananda görəcəkləri əhvalatları lövhə-lövhə, mənzərə-mənzərə əks etdirir.

**Əliağa Kürçaylı,**
*şair, dramaturq*

Teymur müəllim həyəcanını büruzə verən adam deyildi. Ancaq mən söhbətlərimizdən görürdüm ki, o, Qarabağın işğal olunması dərdi ilə barışa bilmir. Bir sıra yazıçı, şair və bəstəkarlarımızı Qarabağ dərdi apardı. Onlardan biri də Teymur Elçin oldu.

**Vasif Adıgözəlov,**
*Xalq artisti*

Teymur Elçinin "Şəkərim-duzum", "Torağayın nəğməsi" kitabları uşaqların psixologiyasını dərindən duyan, onlara duzlu-məzəli söz deyən həssas bir müəllifin qələmindən çıxmışdır. Uşaqlarımızı vətənpərvər ruhda tərbiyə edən bu əsərlər dövlət mükafatına layiqdir.

**Hikmət Ziya,**
*Əməkdar incəsənət xadimi*

Teymur Elçin yaz yağışı kimi gurultu-pırıltı ilə gəlib-gedən və ya qış günəşi kimi qalın buludlar ardından soyuq-soyuq gülümsünüb ötən bəzi yazıçılardan tamamilə fərqli olaraq bu vəzifənin həm şərəfini, həm də ciddiyyət və məsuliyyətini dərk edib uşaq ədəbiyyatına gəldiyini əsərlərində isbat etmiş yazıçıdır.

**Mikayıl Rzaquluzadə,**
*nasir, şair*

Teymur Elçin bizim ədəbiyyatımızda özündən sonra yeri görünən çox istedadlı uşaq şairidir. O, harada işləməsindən asılı olmayaraq yerində olan adam idi. Ən qiymətlisi isə onun əsl Azərbaycan ziyalısı olmasında idi. Azərbaycan ziyalısı üçün mümkün olan nə vardısa Teymur müəllim onu edirdi. Ziyalıların yaşaması, sınmaması üçün çox ciddi işlər görürdü. Və ömrünün sonuna kimi o, əsl ziyalı, əsl şair kimi qaldı. Təmiz, pak, həyalı, yüksək mədəniyyətli gözəl şair. O saflığı Teymur müəllim özü ilə də apardı...

**Fikrət Qoca,**
*Xalq şairi*

O, sözlə nəfəs alır, sözlə yaşayırdı, sözün ülviliyini uca tuturdu. Həm xalq dilinə, həm də ədəbi dilə vaqif idi – necə gözəl bilirdi dilin incəliklərini!

* * *

O, öz zəhməti, istedadı ilə taleyini yaza-yaza örnək olan şərəfli bir ömür yaşayıb və adını doğma xalqının ürəyinə, yaddaşına həkk edib. Söz karvanı sabaha, gələcəyə üz tutub Teymur Elçinin!

* * *

Teymur Əliyev, adı böyük hərflərlə yazılacaq əsl ziyalı idi. Onun bir çox ziyalıların, yazıçıların, televiziya jurnalistlərinin, ayrı-ayrı sənət adamlarının taleyində misilsiz xidmətləri olmuşdur.

* * *

Teymur Elçinin şeirləri folklordan qaynaqlandığı üçün oxucunu sehrləyirdi. Onun balacalar üçün yazdığı nağıllar bal kimi şirin idi. Bu yazılar bu gün də uşaq ədəbiyyatının qızıl saxlancıdır.

* * *

Bahar ünvanlı sənətkarlar sırasında mənim qəlbən sevdiyim, özümə ustad saydığım, xatirəsini uca tutduğum bir insan var – Teymur Elçin.

Teymur müəllim tələbkar rəhbər olduğu qədər də həssas, qayğıkeş, təvazökar bir insan idi. Teymur müəllim bir məktəb – universitet idi. Onun tələbkarlığı bizim nəslin canına, qanına, iliyinə, sümüyünə işləyib. Biz onunla – ustadımızla həmişə fəxr etmişik, edirik və edəcəyik də!

**Nahid Hacızadə,**
*yazıçı*

O, sənətə, poeziyaya sədaqətlə, vicdanla xidmət edən, daim qəlbinin səsini dinləyən şairdir. Teymur Elçində məsuliyyət hissi güclüdür, şairlik adından sui-istifadə ondan uzaqdır.

* * *

Teymur Elçinin kifayət qədər yaradıcılıq təcrübəsi, sevimli mövzuları, surətləri, qəhrəmanları vardır. Onun əsərlərini nəzərdən keçirəndə belə qənaətə gəlirsən ki, Teymur Elçin bütün varlığı ilə, bütün istedadı ilə uşaq ədəbiyyatına bağlı şairdir. Sadə-

lik, yığcamlıq, müstəqillik, adi həqiqətləri uşaqlara sevdirə biləcək şeiriyyətlə tərənnüm-təsvir onun poeziyasının başlıca məziyyətindəndir. Şair balaca dostları ilə açıq, ciddi, səmimi danışır, mehriban, eyni zamanda tələbkar valideyn kimi danışır; onların kinsiz-küdurətsiz körpə qəlblərini ehtizaza gətirir. Şair balaca oxucularının varlığını poeziyanın nuru və şəfəqi ilə doldurur. Sözlərin müxtəlif məna çalarını, xalq dilinin zənginliyini, əlvanlığını, poetikliyini uşaqlara çatdırmaq baxımından bu şeirlər müstəsna əhəmiyyətə malikdir.

**Qulu Xəlilov,**
*professor*

Teymur Elçini belə müxtəlif yaşlı, müxtəlif dünyalı insanlara eyni dərəcədə doğma edən sirr nə idi? Yəqin ki, uşaq paklığı, böyük müdrikliyi.

**Ayaz Vəfalı,**
*Əməkdar mədəniyyət işçisi*

Həqiqətən də söz onun qələmində mum kimi yumşaq və təsirli olur.

**Flora Xəlilzadə,**
*Əməkdar jurnalist*

Azərbaycan müasir şeirində sərbəst vəznin növləri var: əruz sərbəsti, heca sərbəsti, ritmli sərbəst və ritmsiz sərbəst. Teymur Elçinin şeirlərinin çoxu əsl ritmik, sağlam sərbəst ilə yaradılmışdır. Bu növ sərbəstin özünəməxsus sintaksisi və kompozisiyası olur. Qafiyə sənəti də belə şeirlərə xüsüsi gözəllik və musiqi artırır.

Azərbaycan şeirində yeddi tip qafiyə var: yarımqafiyə, bəsit qafiyə, tam qafiyə, dolğun qafiyə, zəngin qafiə, cinas qafiyəsi, müqəyyəd qafiyələr. "Torağayın nəğməsi"ndə dolğun və zəngin qafiyələr üstünlük təşkil edir. Bu cəhət şeirin rövnəqini çoxaldır. Bu əsərlərin demək olar, heç birində qafiyə zorakılığı yoxdur.





Qafiyələr öz-özündən təbii gəlir. Yaxud dil özü ilə bu qafiyələri şeirə gətirir.

* * *

Teymur Elçin Azərbaycan dilinin incəliklərini sıravi nəfər kimi deyil, həssas bir şair kimi duyur, fikir və hisslərini oxuculara təsirli ifadələr vasitəsilə çatdırır.

* * *

"Dünya məhvərindən qopur elə bil" şeirini yazan əli ədəbiyyatımızın tarixi öpəcəkdir. Mən bu şeirlə qüvvət və ilham baxımından Azərbaycan poeziyasında müqayisə edilə biləcək tək bir şeir görürəm: böyük Sabirin "Fəxriyyə"sini.

**Əkrəm Cəfər,**
*professor*

Əziz Teymur Süleyman oğlu! Bu gün Peredelkinoya təzəcə yağan qar və Sizin kimi gözəl bir insanın göndərdiyi kitablar mənə böyük sevinc gətirmişdir. Fəxr edirəm ki, mənim şeirlərim gözəl Azərbaycan dilində Sizin tərcümənizdə səslənir.

**Korney Çukovski,**
*rus şairi*

Teymur Elçin bir söz sərrafı kimi əsərlərində kəlmələri zərgər dəqiqliyi ilə seçirdi. Xalqın dilindən eşitdiyi sözləri ustalıqla oxucusuna öyrədirdi.

**Zahid Xəlil,**
*professor*

Fikri sadə şəkildə ifadə etmək, yeni formalar tapmaq, uşaqların qəlbinə, şüuruna təsir edə biləcək əsərlər yazmaq Teymur Elçini həmişə düşündürmüşdür. Şeirin vəzni, qafiyələrin oynaqlığı, sözün məna siqlətinə tabe edilməsi, xüsusilə, qələmə aldığı mövzunun inandırıcı, təbii səslənməsi onun yaradıcılığının başlıca keyfiyyətidir.

* * *

Tapmacaların köməyi ilə uşaqlarda müəyyən əşya və hadisə haqqında tənqidi mühakimə yürütmək vərdişi, əlamət və keyfiyyətlərə uyğun fəal nəticə çıxarmaq bacarığı, hazırcavablıq tərbiyə olunur.

**Qara Namazov,**
*professor*

Əzizim Teymur! Sizin orijinal yaradıcılığınız uşaqlarımız, cavanlarımız üçün əlvan rəngli gül-çiçəkdən çələng kimi hörülən, daima təravətini saxlayan tərbiyəvi töhfədir. Siz yenilikçi yaradıcılığınızın gündən-günə açılan çiçəklənmə çağındasınız. İti, ağıllı qələminizi işlədiniz!

**Süleyman Rəhimov,**
*Xalq yazıçısı*

Teymur Elçin xalqımızın vətəndaş oğullarından biridir. O, ürəyi həmişə nəğmə ilə dolu, həmişə poetik, həmişə qayəli, həmişə nəğməli günləri olan şairimizdir.

**Məmməd Araz,**
*Xalq şairi*

Teymur müəllim! Siz gözəl bir şair, nəcib insan, görkəmli dövlət xadimi kimi hamımız üçün doğma və əzizsiniz.

* * *

Teymur Elçini fərqləndirən cəhət uşaqlar haqqında düşünərək əl çatıb, ünyetməz uşaqlıq zirvələrinə baş vurub, böyüklərə məxsus bir bitkinliklə bu incəlikləri müasirlik baxımından təsvir və tərənnüm etməyi bacarmaqdır.

* * *

Teymur Elçinin yaradıcılığında balalar üçün yazılmış istər kiçik, istər iri həcmli əsərlərdə məzmunla forma arasındakı





uyğunluq, fikir aydınlığı ilə yanaşı dil axıcılığı, oynaqlığı, dərin səmimiyət oxucunu düşündürür, fərəhləndirir.

Müəllifin yaradıcılığında Azərbaycan torpağının çayları, çəmənləri, meşələri, rəngbərəng otları, hər fəslin özünəməxsus gözəlliyi, şirinliyi mahir bir şair gələmi ilə öz əksini tapır, həyata, varlığa bizdə qayğı, həssas münasibət oyadır.

Əksər şeirlərdə o, nəinki bir şair, eyni zamanda bir rəssama dönür, haqqında danışdığı şeylərin, predmetlərin söz ilə şəklini çəkir.

**Hüseyn Arif,**
*Xalq şairi*

Əziz Teymur müəllim ziyalılığı, insanpərvərliyi ilə məni ilk gündən özünə vurğun eləmişdir.

**Yusif Səmədoğlu,**
*Əməkdar incəsənət xadimi*

Azərbaycanın layiqli oğlu Teymur Elçin nəcib, mərd, ata ürəkli şair qardaşımızdır. Biz onun qayğısını həmişə hiss etmişik. O, görkəmli partiya və dövlət xadimi olmaqla bərabər xəzinə bir İ n s a n d ı r!

**Xəlil Rza,**
*Xalq şairi*

Teymuru Qarabağda baş verən, müharibəyə çevrilən erməni xəyanəti sarsıtdı. Teymur qırğınlara, el-obalarımızın dağılmağına, Şuşanın bombardman edilməyinə dözə bilmirdi, Teymurun şirin gülüşü qayğılı-qəmli baxışlarla, düşüncələrlə əvəz olunmuşdu. Son nəfəsində də Vətən dedi, torpaq dedi Teymur. Acınacaqlı müharibənin sonunu, qələbəmizi görmək idi ən yüksək arzusu.

**Bayram Bayramov,**
*Xalq yazıçısı*

Sevimli şairimiz Teymur Elçin üzünü uşaqlara tutub böyüklər üçün, böyüklərə tutub balacalar üçün şeir yazan, söz deyən, fikir yürüdən sənətkardır.

**Kamil Vəli Nərimanoğlu,**
*professor*

Şair yaradıcılıq prosesində kimlər üçün yazdığını diqqət mərkəzində saxlamış və unutmamışdır ki, azyaşlı oxucular heç bir üzgörənlik göstərmədən, kənar təsirə qapılmadan konkret hökm verirlər: "Yaxşıdır!", yaxud "Pisdir!".

* * *

Teymur Elçin xalqa xidmətini ömrünün qayəsi, sənətə xidməti yaradıcılığının məramı hesab edən sevimli şairimiz, görkəmli ictimai xadim, namuslu-zəhmətkeş ziyalıların vəfadarıdır.

* * *

Teymur müəllim, Siz Azərbaycan uşaq ədəbiyyatının məhsuldar, zəkalı nümayəndəsisiniz. Biz Sizi uşaqlarımızın mənəvi yetkinliyi və təfəkkür kamilliyi naminə mütəsna fəaliyyət göstərən ilhamlı vətəndaş – şair kimi tanıyır və sevirik.

Xalqa, Vətənə, xüsusilə, uşaqlarımızın könül dünyasına məhəbbət eşqi ilə döyünən ürəyiniz var olsun!

**İmamverdi Əbilov,**
*professor*

Teymur müəllimin çox gözəl musiqi zövqü vardı. Ona görə də, onunla işləmək adama çox müsbət enerji verirdi. Gözəl ünsiyyət mədəniyyətinə malik idi. Həm də, çox zarafatcıl idi. Ona görə də, onunla işləməkdən adam nəinki yorulmurdu, heç doymurdu.

* * *

Mənim şəxsi həyatımda, yaradıcılığımda, taleyimdə görkəmli şairimiz, unudulmaz Teymur Elçinin böyük rolu olub.





